# İNKLÜZİV TƏHSİL – XXI ƏSR TƏHSİLİNİN AÇARI



**Afaq Nəsibova,**
*Bakı Slavyan Universitetinin İnklüziv və adaptiv təhsil kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: afaqnesibova@mail.ru*
*https://orcid.org/0000-0003-1653-8844*
*https://doi.org/10.30546/2706-7858.2026.1.216*

**UOT:** 376

**Xülasə.** *XXI əsrdə təhsil sisteminin əsas qayəsi yalnız biliklərin ötürülməsi deyil, həm də sosial ədalət, bərabərlik və davamlı inkişaf kimi fundamental prinsiplərə uyğun olaraq müasir təhsilin bazasını yaratmaqdır. Bu sahədə isə əsas hədəf cəmiyyətin bütün üzvlərinin, xüsusilə də xüsusi qayğıya ehtiyacı olan uşaqların və sosial cəhətdən həssas qrupların keyfiyyətli təhsil almasına imkan yaradan, müasir yanaşma olan inklüziv təhsilin həyata keçirilməsidir. Məqalə çərçivəsində inklüziv təhsilin mahiyyəti, nəzəri əsasları, beynəlxalq və Azərbaycan təcrübəsi, müasir çağırışlar və gələcək perspektivlər elmi yanaşma ilə təhlil olunaraq XXI əsrin təhsil modelində onun oynadığı rol müəyyənləşdirilmişdir. Eyni zamanda qeyd olunanlar əsas gətirilərək inklüziv təhsilin müasir dövrün ən vacib pedaqoji yanaşmalarından biri olduğu vurğulanmış, BMT, UNESCO və UNICEF kimi beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə inklüziv təhsil dayanıqlı inkişaf məqsədlərinin (SDG 4: Keyfiyyətli təhsil) ayrılmaz tərkib hissəsi kimi müəyyən olunmuşdur. Nəticə etibarilə məqalədə müəyyən olunmuşdur ki, inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün yalnız pedaqoji yanaşmalar deyil, həm də geniş və əlçatan infrastruktur zəruridir. Mövcud infrastruktur problemləri əlilliyi olan uşaqların bərabər təhsil imkanlarından yararlanmasına ciddi əngəllər yaradır. Bu problemlərin həlli isə kompleks, planlı və ardıcıl yanaşma tələb edir. Dövlət və cəmiyyətdən gələn dəstək, həmçinin təhsilin idarə olunması sistemində inklüzivlik prinsipinin prioritetləşdirilməsi inklüziv təhsilin reallaşmasında mühüm rol oynayacaqdır.*

***Açar sözlər:*** *bərabərlik, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, inklüzivlik, inklüziv təhsil.*
***Keywords:*** *equality, children with special needs, inclusiveness, inclusive education.*
***Ключевые слова:*** *равенство, дети с особыми потребностями, инклюзивность, инклюзивное образование.*

Müasir dövrdə təhsil sistemləri qloballaşma, texnoloji tərəqqi və sosial müxtəlifliyin yaratdığı yeni çağırışlarla üz-üzədir. Belə ki, elmi və texniki tərəqqinin baş verdiyi bir dövrdə qloballaşma, rəqəmsallaşma və sosial müxtəliflik XXI əsrin əsas reallıqları kimi qəbul olunmaqdadır. Bu reallıqlar da özlüyündə təhsil sistemi qarşısında hər bir fərdin potensial inkişafını təmin etmək və onu reallaşdırmağa şərait yaratmaq kimi əsas tələbləri qoyur. Elə bu səbəbdən də həmin tələblərin həyata keçirilməsi

müasir dövrün ən vacib istiqamətlərindən biri hesab edilən inklüziv təhsilin inkişafını və reallaşdırılmasını labüd edir.

Bildiyimiz kimi, XXI əsrin təhsil modeli yalnız bilik verməklə məhdudlaşmır, eyni zamanda sosial ədalət, bərabərlik və insan hüquqlarını təmin etməyi hədəfləyir. Hazırda hər bir fərdin potensialının reallaşdırılması yalnız fərdi inkişaf üçün deyil, həm də cəmiyyətin sosial-iqtisadi tərəqqisi üçün zəruridir. Azərbaycanın təhsil siyasətində əsas prinsip kimi qəbul olunan "heç kim təhsildən kənarda qalmasın" yanaşmasını da, məhz inklüziv təhsil vasitəsilə reallaşdırmaq mümkündür.

Müasir dövr üçün BMT, UNESCO, UNICEF kimi beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə də inklüziv təhsil dayanıqlı inkişaf məqsədlərinin (SDG 4: Keyfiyyətli təhsil) əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Ölkəmizdə də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün "İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nı da bu sahədə mühüm addımlardan biri kimi qəbul etmək olar.

Məlum olduğu kimi, "XXI əsr təhsilinin açarı" hesab edilən inklüziv təhsilin əsas prioritet məsələlərindən biri hər bir təhsilalanın onun bacarıq və imkanlarından asılı olmayaraq öz yaşıdları ilə bərabər, eyni təhsil mühitində bərabərhüquqlu iştirakının təmin edilməsidir. Bununla bağlı Beynəlxalq Şagird Qiymətləndirmə Proqramının (PİSA) yaradıcısı professor Andreas Şleyxer də qeyd etmişdir ki, "Müasir cəmiyyətdə və təhsil sistemində bərabərlik və inklüzivlik vacibdir" [2, s.54]. Bu baxımdan inklüziv təhsilin əsas prinsiplərini aşağıdakı kimi klassifikasiya etmək mümkündür:

– *bərabər imkanlar: bütün uşaqların bərabər şərtlər əsasında təhsilalma hüququnun təmin olunması;*

– *dəyərlərə hörmət: multikultural dövlət olan Azərbaycanda müxtəlif mədəniyyət, dil və bacarıqların qəbul edilməsi;*

– *fərdiləşdirilmiş yanaşma təhsilalanların fərdi təhsil ehtiyaclarının və potensial imkanlarının nəzərə alınması ilə onlara uyğun metodların tətbiqi;*

– *inteqrasiya: ən əsası da xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə uğurlu adaptasiyası və inteqrasiyasının təmin olunması.*

Yuxarıda sadalanan müddəaların həyata keçirilməsi məqsədi ilə ölkəmiz bir sıra inkişaf etmiş dünya ölkələrinin təcrübələrindən bəhrələnərək inklüziv təhsilin yalnız sosial layihə deyil, həm də strateji inkişaf istiqaməti olduğunu göstərməyə çalışır. Belə ki, Azərbaycanın inklüziv təhsil sahəsində ən çox istinad etdiyi Finlandiyada təhsil fərdiləşdirilmiş tədris proqramları üzrə aparılır. Amerika Birləşmiş Ştatlarında IDEA (Individuals with Disabilities Education Act) Qanunu əsasında inklüziv təhsil hüquqi təminat altındadır və bu sahədə aparıcı təcrübəyə malik Yaponiyada ən müasir texnologiyalardan istifadə etməklə əlilliyi olan uşaqların təhsilə inteqrasiyası həyata keçirilir. İtaliyada isə 1977-ci ildən başlayaraq xüsusi məktəblər ləğv edilərək ümumi məktəblərə inteqrasiya edilib və s. [3].

Azərbaycanın da öz növbəsində, bəzi ümumtəhsil məktəblərində pilot inklüziv siniflər fəaliyyət göstərir. Həmçinin son illərdə respublikamızın bir çox ali təhsil müəssisələrində, o cümlədən Bakı Slavyan Universitetində bu sahədə mütəxəssis hazırlığı yüksək səviyyədə həyata keçirilir. Belə ki, respublikanın pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri sırasında Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev başda olmaqla, professor-müəllim heyəti də öz növbəsində, inklüziv təhsilin təşkili, habelə həyata keçirilməsi istiqamətində aparıcı mövqedədir. Məhz bu məqamlar 2023-cu ilin sentyabr ayında BSU-nun Elmi Şurasının növbəti iclasında sözügedən ali təhsil müəssisəsinin Strateji İnkişaf Planının əsas tərkib hissəsi olmaqla onun müddəalarında öz əksini tapmışdır. Beləliklə, "BSU 2030" Strateji İnkişaf Planına uyğun olaraq universitetin 2030-cu ilədək inklüziv təhsilin təşkili və bu istiqamətdə məzmunun inkişafı, səriştəəsaslı kadr hazırlığı, əlavə təhsilinin təşkili, eləcə də inklüziv iş mühiti sahəsində ölkəmizin ali təhsil müəssisələri arasında qabaqcıl yerə sahib olması, qlobal səviyyədə rəqabətədavamlı müəssisə kimi tanınmasını hədəfləyir. Bakı Slavyan Universitetinin davamlı olaraq müxtəlif maraq qrupları ilə keçirdiyi tədbirlər universitetin inklüziv təhsilin müzakirə məkanlarından birinə çevrilməsini qarşıya məqsəd qoymuşdur [4]. Eyni zamanda BSU-da kadr hazırlığı

aparılan bütün pedaqoji və filoloji ixtisasların təşklilində inklüziv təhsilin təşkilinə dair tələblərin yer alması hədəflənir. Qarşıdakı dövr ərzində isə bu proses "ibtidai sinif müəllimliyi", "məktəbəqədər hazırlıq", "korreksiyaedici təlim" və "təhsildə sosial-psixoloji xidmət" ixtisaslarına fokuslanmışdır [5, s.15]. Bundan başqa, universitetimizdə peşəkar mütəxəssislərin çalışdığı və öz təcrübələrini bölüşdüyü İnklüziv və adaptiv təhsil kafedrası da fəaliyyət göstərməkdədir. İnklüziv təhsilin inkişafı yalnız pedaqoji təcrübə ilə məhdudlaşmır, həm də beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Belə sənədlər sırasında BMT Uşaq Hüquqları Konvensiyasının (1989) adını çəkmək olar ki, bu hər bir uşağın bərabər təhsil hüququna malik olduğunu təsbit edir. Bundan əlavə, Salamanka Bəyannaməsi (1994) xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi məktəblərdə təhsil almasının vacibliyini beynəlxalq səviyyədə qəbul edən ilk sənədlərdəndir [3].

Bu gün inklüziv təhsilin elmi-fəlsəfi bazası humanizm və demokratik dəyərlərə əsaslanır. Məhz onun əsas nəzəri dayaqlarını klassik pedaqogika və pedaqoji fikrin görkəmli nümayəndələrinin pedaqoji konsepsiya və nəzəriyyələri təşkil edir. Bu nəzəriyyələr özündə inklüziv təhsilin əsas komponentləri sayılacaq məqamları ehtiva edir: Jan Jak Russo, Lev Nikolayeviç Tolstoy, Jan Piajenin humanist pedaqogikasına əsasən, insan şəxsiyyətinin bənzərsizliyinə və fərdi inkişafına hörmət, Con Roulsun sosial ədalət nəzəriyyəsinə görə, cəmiyyətin nisbətən zəif təbəqələrinin müdafiəsi və onlar üçün bərabər imkanların yaradılması, Lev Semyonoviç Vıqotski, Cerom Brunerin konstruktivizm yanaşmasına əsasən, təhsilalanın biliklərini fərdi və sosial mühitlə qarşılıqlı əlaqə şəraitində qazanması, Çarls Teylor, Vil Kumliçka (Will Kymlicka) və b. multikulturalizm ideologiyasına görə, insanlar arasında mədəni, etnik və sosial müxtəlifliyin qəbul olunması ilə birgəyaşayış mədəniyyətinin inkişaf etdirilməsi.

Əslində isə özündə humanizm, demokratizm, bərabərlik, ədalətlilik və bir çox anlayışları birləşdirən inklüziv təhsilin həyata keçirilməsi təkcə sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüquqlarının təmin edilməsi deyil, eyni zamanda bir çox səbəblər üzündən cəmiyyətimizdə baş verən ayrıseçkiliyi aradan qaldıraraq bərabərlik prinsiplərini möhkəmləndirməsidir. Bununla da, sosial ədalət və insan hüquqlarının qorunması, müxtəlif bacarıq və potensiala malik olan insanların əmək bazarına qoşulması, ölkələrin insan kapitalını gücləndirməklə iqtisadi inkişafı rəqəmsal platformalar və xüsusi tədris vasitələri üzərindən inklüzivliyin tətbiqini daha əlçatan etməsi, texnoloji yeniliklərə uyğunlaşma, təhsilalanların və onların valideynlərinin fərqlilikləri qəbul etməsi məqsədi ilə cəmiyyətimizdə maarifləndirmə işləri aparılmalıdır, Məqsəd onlarda dözümlülük və tolerantlıq mədəniyyətinin formalaşdırılmasını təmin etməkdir. Buna baxmayaraq apardığımız araşdırma nəticəsində belə qənaətə gəlmək mümkündür ki, inklüziv təhsil sahəsində hələ də bəzi çatışmazlıqlar müşahidə olunmaqdadır. Belə ki, bunların sırasında ilkin olaraq maliyyə və resurs çatışmazlığını qeyd etmək lazımdır. Ölkəmizdə hələ də inklüziv təhsilin beynəlxalq standartlara cavab verəcək səviyyədə həyata keçirilməsi üçün xüsusi avadanlıqlar və inklüziv tədris resursları kifayət qədər deyildir.

Problemin əsas səbəbi davamlı maliyyələşmənin olmaması inklüziv təhsilin keyfiyyətinə və davamlılığına birbaşa təsir göstərən amillərdəndir. Bunu biz daha çox ixtisaslı kadr çatışmazlığı, yəni müəllimlərin əksəriyyətinin inklüziv təhsil üzrə peşəkar təlim almadan dərs keçmələri; infrastrukturun natamamlığı, yəni inklüziv siniflərin fəaliyyət göstərdiyi bir çox məktəblərin hələ də əlilliyi olan uşaqlar üçün tam uyğunlaşdırılmaması; resurs çatışmazlığı, inklüziv siniflərin tədris vəsaitləri, köməkçi texnologiyalarla (Braille kitablar, eşitmə cihazları və s.) kifayət qədər təmin olunmaması; ailələrin maddi yükünün artması, dövlət dəstəyinin məhdud olması ailələri əlavə xərclərlə üz-üzə qoyması və s. kimi məsələlərdə görə bilərik.

İnklüziv təhsilin həyata keçirilməsində maneə yaradan digər bir məsələ pedaqoji kadr hazırlığı ilə bağlıdır. Bildiyimiz kimi, inklüziv təhsil sahəsində çalışan müəllimlərin digər əməkdaşlarından fərqləndirən əsas cəhəti bu müəllimlərin yalnız bilik ötürücüsü deyil, həm də fərqli ehtiyacları olan təhsilalanların fərdi potensialını aşkara çıxaran və inkişaf etdirən bir rəhbər, yönləndirici, psixoloji dəstəkverici rolunda çıxış

etmələridir. Bu sahədə çalışan müəllimlər bir sıra əlavə keyfiyyətlərə də malik olmalıdırlar:

*– fərdi təhsil planları hazırlayaraq onları tətbiq etmək;*

*– kooperativ öyrənmə və differensial tədris metodlarından düzgün istifadə etməyi bacarmaq;*

*– ehtiyac olduğu halda psixoloji və emosional dəstək göstərməyi bacarmaq;*

*– valideyn və mütəxəssislərlə əməkdaşlıq yarada bilmək.*

Bu keyfiyyətləri uğurla yerinə yetirmək üçün pedaqoqların inklüziv təhsil üzrə nəzəri və praktiki biliklərə malik olması vacibdir. Bu da bir reallıqdır ki, hazırda Azərbaycanda inklüziv təhsilin tətbiqi istiqamətində hüquqi baza və müəyyən pilot layihələr mövcud olsa da, pedaqoji kadr hazırlığı məsələsində ciddi boşluqlar hələ də qalmaqdadır. Belə ki, ölkəmizdə hələ də ali təhsil müəssisələrində inklüziv təhsil üzrə tədrisin məhdudluğu müşahidə olunmaqdadır. Müəllim hazırlığı proqramlarında inklüziv təhsil fənni ya mövcud deyil, ya da kifayət qədər dərindən tədris olunmur. Bundan başqa, müəllimlərin ixtisasartırması üçün imkanlar tam formada səfərbər olunmur. Mövcud müəllimlərin inklüziv təhsilə hazırlığı üçün təşkil olunan treninqlər ya az sayda keçirilir, ya da praktikyönümlü deyil. Lakin bu sahədə Bakı Slavyan Universiteti öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir. Artıq bir neçə ildir ki, ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, eyni zamanda məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri üçün BSU-da silsilə təlimlər həyata keçirilir. Bu təlimlərin əsas məqsədi inklüziv təhsil sahəsində pedaqoji kadr hazırlığını həyata keçirmək və idarəetmə səriştələrini formalaşdırmaqdır.

Bəzi valideynlər inklüziv siniflərdə öz övladlarının təhsilinin heç də effektiv olmadığını və ətrafdakıların mənfi münasibət və davranış sərgiləyəcəklərini düşünərək, övladlarının təhsil almasına qarşı çıxırlar. Stereotiplər, eyni zamanda təhsilalanlar arasında ayrı-seçkilik və mobbinq hallarının artmasına da səbəb olur. Bəzən elə hallar da olur ki, fərqli ehtiyaca malik təhsilalanlar özlərinin qəbul edilmədiyini hiss edərək motivasiya itkisi yaşayır və zamanla təhsildən uzaqlaşırlar. Bütün sadalanan məqamları nəzərə alaraq stereotipləri azaltmaq üçün cəmiyyətimizdə bir sıra kompleks yanaşmaların həyata keçirilməsi qaçılmazdır:

*– maarifləndirmə məqsədi ilə müəllimlər, valideynlər, bir sözlə, cəmiyyətin bütün fərdləri üçün inklüzivliklə bağlı təlim və seminarların keçirilməsi;*

*– KİV-lərdən media dəstəyi almaq üçün inklüzivlik mövzusunda pozitiv nümunələrin təqdim olunması, təşviqat kompaniyalarının aparılması və maarifləndirmə məqsədi ilə müxtəlif sosial layihələrin həyata keçirilməsi;*

*– pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrində inklüziv təhsil üzrə xüsusi fənlərin tədrisi imkanlarının genişləndirilməsi;*

*– dövlət tərəfindən inklüziv təhsilin inkişafı üçün stimullaşdırıcı hüquqi və maliyyə dəstəklərinin təminatı və s.*

Unutmaq olmaz ki, inklüziv təhsil sisteminin effektiv şəkildə tətbiqi yalnız fiziki şəraitin yaradılması ilə deyil, həm də cəmiyyətdəki stereotiplərin aradan qaldırılması ilə mümkündür. Bu istiqamətdə hər bir vətəndaşın, xüsusilə də təhsil işçilərinin, valideynlərin və media nümayəndələrinin üzərinə böyük məsuliyyət düşür. Stereotiplərlə mübarizə aparmaq, inklüziv düşüncənin yayılması və sosial ədalətin bərqərar olması üçün zəruridir ki, bu məqsədə çatmaq naminə cəmiyyətin maarifləndirilməsi və inklüziv dəyərlərin təbliği əsas şərtlərdən biridir.

Bir çox məktəblərdə fiziki məhdudiyyətli uşaqlar üçün müvafiq şəraitin olmaması infrastruktur problemlərini də gündəmə gətirir. Qeyd etdiyimiz kimi, inklüziv təhsilin məqsədi bütün uşaqlar üçün bərabər təhsil imkanları yaratmaqdır və bu məqsəd yalnız qanunvericilik və pedaqoji yanaşmalarla məhdudlaşmamalıdır. Fiziki məhdudiyyəti və ya xüsusi qayğıya ehtiyacı olan təhsilalanların da təhsil prosesinə tam şəkildə cəlb olunması üçün təhsil müəssisələri də bu məqsədə müvafiq fiziki mühit, tam texniki təchizat, nəqliyyat imkanları və digər infrastruktur komponentlərlə uyğunlaşdırılmalıdır. İnfrastruktur sadəcə binanın fiziki əlçatanlığını deyil, həm də təlim vasitələrinin mövcudluğunu və uyğunluğunu da əhatə edir. Bununla belə, ən çox rast gəlinən problemlərdən biri məktəb binalarının fiziki cəhətdən əlçatan olmamasıdır. Belə ki, respublikamızın bir çox ümumtəhsil məktəbləri və ali təhsil müəssisələrində hələ də panduslar (rampa) heç yoxdur, ya

da ki standartlara uyğun deyil. Bundan başqa, təhsil müəssisələrində liftlərin olmaması, müəssisədəki qapılar, pilləkənlər və sanitar qovşaqlar da xüsusi qayğıya ehtiyacı olan fiziki məhdudiyyətli şəxslər üçün uyğunlaşdırılmayıb. Xüsusi qayğıya ehtiyacı olan təhsilalanların təlim-tərbiyə prosesində xüsusi avadanlıqların rolu da böyükdür. Bunların sırasında görmə məhdudiyyətli Braille (əlifbası) və eşitmə məhdudiyyətli uşaqlar üçün surdotexniki vasitələr, digər adaptiv kompüter proqramları və köməkçi texnologiyalar (məsələn, ekran oxuyucular) vardır ki, onların tətbiqi təlim-tərbiyə prosesində pedaqoqun ən yaxın köməkçi vasitələrindəndir. Lakin bu sadalanan tədris vəsaitləri və texnologiyaların əksəriyyəti inklüziv siniflərin fəaliyyət göstərdiyi məktəblərdə ya heç yoxdur, ya da ki çox məhdud saydadır.

Bu gün yerüstü və yeraltı nəqliyyat ifrastrukturunun inkişaf etdiyi bir ölkədə çox təəssüf ki, bir çox sağlamlıq imkanları məhdud, xüsusilə, dayaq-hərəkət aparatı pozuntusu olan və əlil arabasından istifadə edən uşaqlar məktəbə getmək üçün uzaq məsafə qət etməli olur və bu məqamda çox böyük çətinliklərlə rastlaşırlar. Çünki əsasən şəhər mərkəzlərində fəaliyyət göstərən yeni nəqliyyat növü sayılan “Bakubus”lardan savayı, digər ictimai nəqliyyat vasitələri əlil arabaları üçün uyğun deyil, eyni zamanda bu tipli məktəblər xüsusi nəqliyyat vasitələri ilə də təmin olunmayıblar. Bu səbəbdən də bu uşaqların valideynləri xüsusi nəqliyyat vasitələrindən istifadə etməli olurlar. Bu isə bir ailənin maddi vəsaiti hesabına başa gəlirsə, heç də bütün ailələrin büdcəsinə uyğun deyildir.

İnfrastruktur problemlərinin həlli məqsədi ilə onun əlçatanlığının təmin olunması üçün texniki normativlər qanunvericilikdə dəqiq əks olunmalı və tətbiqi nəzarət altında saxlanılmalı, təhsil müəssisələrinin yenidən qurulması və texniki vasitələrlə təchizatı üçün dövlət proqramları hazırlanmalı, hökumət və qeyri-hökumət təşkilatlarının və özəl sektorun cəlb olunması təşviq edilməli, memar, mühəndis və layihəçilər inklüziv dizayn prinsipləri üzrə təlimlərə cəlb olunmalı, məktəb rəhbərləri və müəllimlərə infrastrukturun əhəmiyyəti barədə maarifləndirici təlimlər keçirilməlidir [6, s.41].

**Nəticə.** Beləliklə, yazılanlardan belə qənaətə gəlmək olar ki, inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün pedaqoji yanaşmalarla bərabər, eyni zamanda geniş və əlçatan infrastruktur da zəruridir. Mövcud infrastruktur problemləri sağlamlıq məhdudiyyəti olan uşaqların bərabər təhsil imkanlarından yararlanmasına ciddi əngəllər yaradır. Bu problemlərin həlli isə kompleks, planlı və ardıcıl yanaşma tələb edir ki, dövlətdən və cəmiyyətdən gələn dəstək, həmçinin təhsilin idarəolunması sistemində inklüzivlik prinsipinin prioritetləşdirilməsi inklüziv təhsilin reallaşmasında mühüm rol oynayacaqdır. Nəticə etibarilə tam əminliklə deyə bilərik ki, inklüziv təhsil XXI əsrin təhsil modelinin əsas açarıdır. O yalnız sosial zəif qrupların deyil, bütün uşaqların potensialının üzə çıxarılması üçün mühüm imkanlar yaradaraq insan hüquqlarının təmin olunması, sosial ədalət və tolerantlığın gücləndirilməsi istiqamətində əsas vasitə qismində çıxış edir. Onun tətbiqi təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün deyil, bütövlükdə bütün cəmiyyət üçün faydalıdır. Belə ki, bu gün Azərbaycanda bu sahədə mühüm addımlar atılsa da, qarşıya qoyulan məqsədlərə çatmaq və davamlı inkişaf naminə hələ də görüləcək işlər çoxdur. Ona görə də gələcəkdə təhsil siyasətinin əsas istiqamətlərindən biri inklüziv təhsilin sistemli şəkildə genişləndirilməsi məsələsi olmalıdır.

## İstifadə edilmiş ədəbiyyat

1. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı, 2017.
https://e-qanun.az/framework/37269

2. Şleyxer A. Dünya standartları: XXI əsrin təhsil sistemini necə qurmalı (tərc. Arzu Soltan). Bakı, “T-Network”, 2022.

3. UNESCO Global Education Monitoring Report: Inclusion and Education, 2020.
https://www.unesco.org/gem-report/en/publication/inclusion-and-education

4. “BSU 2030” Staretji İnkişaf Proqramı. Bakı Slavyan Universitetinin strateji planı (2023-2030).

5. Nağıyev A. İnklüziv təhsil üçün müəllim hazırlığı: BSU-nun təcrübəsi. “İnklüziv təhsildən inklüziv cəmiyyətə (İTİC-2024)” adlı II Beynəl-

xalq elmi-praktiki konfransın materialları. Bakı, 2024, s.10-17.

6. Əliyeva S. Azərbaycanda inklüziv təhsilin inkişaf perspektivləri. Bakı, "Təhsil" nəşriyyatı, 2020.

**A.Nasibova**

## Inclusive education – the key to XXI century education

**Abstract**

In the XXI century, the primary mission of the education system is not only the transmission of knowledge, but also the establishment of the foundation of modern education in accordance with fundamental principles such as social justice, equality, and sustainable development. In this context, the main objective is the implementation of inclusive education as a contemporary approach that ensures access to quality education for all members of society, particularly children in need of special care and socially vulnerable groups. Within the framework of this article, the essence of inclusive education, its theoretical foundations, international and Azerbaijani experience, contemporary challenges, and future prospects are analyzed from a scientific perspective, and its role in the educational model of the XXI century is identified. At the same time, based on the presented arguments, it is emphasized that inclusive education is one of the most important pedagogical approaches of the modern era, in the documents adopted by international organizations such as the United Nations, UNESCO, and UNICEF, inclusive education is defined as an integral component of the Sustainable Development Goals (SDG 4: Quality Education). In conclusion, the article determines that the successful implementation of inclusive education requires not only appropriate pedagogical approaches, but also extensive and accessible infrastructure. Current infrastructural shortcomings pose serious barriers to ensuring equal educational opportunities for children with disabilities. Addressing these issues requires a comprehensive, systematic, and consistent approach. Support from both the state and society, as well as the prioritization of the principle of inclusivity in the education governance system, will play a crucial role in the effective realization of inclusive education.

**А.Насибова**

## Инклюзивное образование – ключ к образованию XXI века

**Аннотация**

В XXI веке основной задачей системы образования является не только передача знаний, но и формирование базы современного образования в соответствии с такими фундаментальными принципами, как социальная справедливость, равенство и устойчивое развитие. В данном контексте ключевой целью становится реализация инклюзивного образования как современного подхода, обеспечивающего доступ к качественному образованию для всех членов общества, особенно для детей, нуждающихся в особой заботе, и социально уязвимых групп. В рамках данной статьи с научной точки зрения проанализированы сущность инклюзивного образования, его теоретические основы, международный и азербайджанский опыт, современные вызовы и перспективы развития, а также определена его роль в образовательной модели XXI века. Одновременно на основе приведённых аргументов подчёркивается, что инклюзивное образование является одним из важнейших педагогических подходов современности, в документах, принятых такими международными организациями, как ООН, ЮНЕСКО и ЮНИСЕФ, инклюзивное образование определяется как неотъемлемая составляющая целей устойчивого развития (ЦУР 4: Качественное образование). В результате в статье установлено, что для успешной реализации инклюзивного образования необходимы не только адекватные педагогические подходы, но и широкая, доступная инфраструктура. Существующие инфраструктурные проблемы создают серьёзные препятствия для реализации равных образовательных возможностей для детей с инвалидностью. Решение данных проблем требует комплексного, планомерного и последовательного подхода. Поддержка со стороны государства и общества, а также приоритетное закрепление принципа инклюзивности в системе управления образованием будут играть ключевую роль в эффективной реализации инклюзивного образования.